NDU-da “INNOSTART” Naxçıvan Hakatonu tədbiri keçirilib

NDU-da keçirilən “INNOSTART” Naxçıvan Hakatonu tədbiri **SUP.VC** və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşkilatçılığı, Naxçıvan Dövlət Universitetinin tərəfdaşlığı ilə baş tutub. Tədbirdə iştirakçılar müxtəlif sahələr üzrə mentorların dəstəyi ilə layihələrini inkişaf etdirmək üçün aktiv şəkildə mübarizə aparıblar. Ruslan Ağakişiyev, Səhər Qədimli, Mübariz Mayılzadə və Murad Nağıyev kimi təcrübəli mentorlar komandalarla işləyərək onların ideyalarına dəyərli tövsiyələr veriblər. Növbəti gün iştirakçılar layihələrini təqdim edərək münsiflərin diqqətini çəkməyə çalışıblar. Onların məqsədi innovativ həllərlə cəmiyyətə fayda vermək və gələcəkdə startaplarını daha da inkişaf etdirməkdir. Bu qurumlar gənc startapçılara dəstək olmaqla onların gələcək inkişafına töhfə verməyi hədəfləyirlər. Qalib komandalar müvafiq olaraq I yer üçün 5000 AZN, II yer üçün 3000 AZN, III yer üçün 2000 AZN məbləğində investisiya qazanıblar. Eyni zamanda, iyun ayında keçiriləcək GOLD Final mərhələsində 50.000 AZN məbləğində investisiya uğrunda yarışacaqlar. Layihələrinin uğurlu olması səbəbindən IV və V yerləri tutan komandalar da GOLD Finalda iştirak edəcək. Qeyd edək ki, ilk 5 yerin qalibi Naxçıvan Dövlət Universitetinin tələbələri olub.

Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin “İMYEN” komandası “INNOSTART” Naxçıvan Hakatonunun qalibi olub

🔹NDU TEC Xarici tələbələr üzrə sədr müavini Eren Alkan, üzvlər Emre Ağgünlü və Mələk Əhmədovanın “Süni intellekt ile radiologiyada daha sürətli və dəqiq diaqnoz qoyulmasını təmin edən platforma” adlı layihəsi 5000 manat məbləğində investisiya qazanıb.

🔹İyun ayında GOLD Final mərhələsində 50.000 AZN

məbləğində investisiya nəzərdə tutulub




